**XIV ULUSLARARASI ALTAY TOPLULUKLARI SİMPOZİUMU**

**Altay Araşdırmalarının Dünəni, Bu günü və Sabahı**

9-12 Sentyabr 2026, Bakı, Azərbaycan

**Birinci Elan**

**Hörmətli həmkarlar!**

9-12 sentyabr 2026-cı il tarixlərində Bakı şəhərində, Azərbaycan Milli Elmlər Akademiyasının ev sahibliyi ilə Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş **"Altay Araşdırmalarının dünəni, bu günü və sabahı"** mövzusunda **XIV Beynəlxalq Altay Topluluqları Simpoziumu** keçirilcəkdir.

Simpoziumda Altay araşdırmalarının keçmişi, bu günu və gələcək inkişaf istiqamətləri dilçilik, tarix, sənət tarixi, arxeologiya, etnoqrafiya, antropologiya, folklorşünaslıq, ədəbiyyat və coğrafiya kimi müxtəlif elm sahələri kontekstində müzakirə ediləcək; yeni elmi nəticələr, mövcud problemlər, onların həlli yolları və gələcək perspektivlər ətrafında fikir mübadiləsi aparılacaqdır.

"Altay Topluluqları" mövzusuna həsr olunmuş simpozium panel və oturumlar şəklində təşkil olunacaqdır. Simpoziuma təqdim edilən məruzələr Simpoziumun Elmi Heyəti tərəfindən dəyərləndiriləcək, məruzələr mövzu və məzmununa uyğun olaraq proqrama daxil ediləcəkdir.

Simpoziuma təqdim olunan məruzələrin özətlərin həcmi 300 sözdən ibarət olmalıdır.

Bir panel - moderator və üç-dörd iştirakçıdan ibarət təşkil olunacaqdır. Moderatorlar panel üzvlərinin mövqelərini və elmi yanaşmalarını təqdim etmələri üçün zəruri koordinasiyanı təmin etməyə, həmçinin müzakirələr üçün kifayət qədər vaxtın ayrılmasına məsuliyyət daşıyırlar. Bu səbəbdən panel rəhbərləri özlərinin seçdikləri məruzəçiləri iştirakçı qismində dəvət etmək hüququna malikdirlər. Panel üzrə təklif panelin mövzusunu və əsaslandırılmasını, eləcə də panel çərçivəsində təqdim olunacaq hər bir fərdi məruzənin mövzuya verdiyi töhfəni aydın şəkildə əks etdirməlidir. Paneldə təqdim olunan hər bir məruzə maksimum 300 sözdən ibarət olmalıdır.

Panel və oturumlarda hər bir məruzə üçün nəzərdə tutulan vaxt **15 dəqiqədir.**

Simpoziuma **100 məruzənin** qəbul edilməsi planlaşdırılır. Məruzələrin orijinallığı, daha öncə toxunulmamış mövzuları əhatə etməsi və ictimaiyyət üçün yüksək maraq kəsb edən elmi dəyərə malik olması əsas meyardır. Simpoziumun elmi səviyyəsinin təmin edilməsi məqsədilə məruzələrin sayı və seçimi ilə bağlı yekun qərar **Təşkilat Komitəsinə** məxsusdur.

**Simpoziumun təqvimi:**

Özətlərin son göndərilmə tarixi: **15 mart 2026**

Məruzə müəllifləri əlavə edilən **Qeydiyyat Formasını** doldurmalı və 300 sözdən artıq olmayan özəti təqdim etməlidirlər.

Qəbul edilən məruzələrin elan olunması: **1 may 2026**

Panel və fərdi məruzə xülasələri Elmi heyət tərəfindən nəzərdən keçiriləcək, qəbul olunanlar və qəbul edilməyənlər barədə müəlliflərə məlumat veriləcəkdir.

**Konfransın işçi dilləri:** Altay dilləri , ingilis dili və rus dili.

Simpozium müddətində iştirakçıların yemək xərcləri və mədəni tədbirlər **Təşkilat Komitəsi** tərəfindən qarşılanacaqdır. Yol və mehmanxana xərcləri iştirakçıların öz vəsaitləri hesabına təmin ediləcəkdir. Qalmaq üçün tövsiyə olunan otellərin siyahısı və simpoziumla bağlı yeniliklər əlavə olaraq elan ediləcəkdir.

**Hörmətlə,**
**Təşkilat Komitəsi**

**Qeydiyyat Formunu və məruzə özətini aşağıdakı ünvana göndərməyiniz xahiş olunur:**

E-mail: altaycommunities.az@gmail.com

Website: altaycommunities.org